

VÜSAL AĞAYEV

## O KÖRPƏNİ ÇOX AXTARDIM...

Təkliyim ən vəfalı dostum imiş...
Hər kəsdən daha sadiq,
hər kəsdən daha dürüstmüş demə...
Harda olsam,
hara getsəm mənimlədir...

Doğulduğum günü xatırlamıram...
Xatırlasam böyük olardım...

Tapsam soruşacaqdim,
o körpədən:
"Qəlbini bu dünyaya niyə bağladın?!
Elə ilk gündən niyə ağladın?"
Soruşacaqdım ki,
soyuqmu vurdu ümidlərini?!
"Xəyalların sabun köpüyü kimi
hacan əridi?!
Haçan itdin alnının xəritəsində?!"

"Ağ saçları
Baş üstünə haçan ucaltdın?!
Zamanın sürgünündə
O körpəni haçan qocaltdın?!"

İllərin saxlancında
hələ də hıçqırır o körpə...
Bəlkə qonşu qızının
ilk eşq ağrısıyla,
elə o gündən
yıxılıb dizini qanadan,
dərisini günəş qaraldan
o uşaq içimə sığındı?!

İndi
bir ana sığalı gəzir
ilk sevginin göz yaşını silməyə,
gözlərinə gülməyə...
Bir ana sığalı gəzir...

Onun yaddaşında
dəryalar balığa,
tənliklər qalığa
uşaqlığı qocalığa uduzub...
Anasına çiçəklər toplayan
bapbalaca əlləri
neçə ildi
ağzına sıxmağa sus payıdır,
neçə ildi udqunur sözünü,
neçə ildi,
içində kilidləyib özünü...
Gəncliyi təkliyinə yoldaş
ümidsizliyinə sirdaş,
güvənsizliyinə qardaş olub...

Haçansa
uşaqların uçurduğu çərpələnglərin
düyünü açılsa,
onda azad olub yenidın doğulacaq
içimdəki bu uşaq...
Və göy gurşağından
Gülüşlər toplayacaq
Anasına...

## QADIN

Qadın da hardasa şeir kimidir,
Gözəl misraları, hecaları var.
Hərdən məftun edən sehr kimidir,
Hərdən də içində acıları var.

Baxar ürəyinin gözüylə qadın,
Görər ürəyindən gəlib keçəni.
Yüz fikir gətirər özüylə qadın,
Şeir tək yatmağa qoymaz gecəni.

Elə bil ruhuna hopar qəflətən,
İlham pərisidir gəlib, bəlkə də.
İncitsən ömründən qopar qəflətən,
Görərsən ruhun da ölüb bəlkə də.

Qadın nəfəsində yatır söz ruhu,
Ən gözəl təşbehdir qadının səsi.
Bəlkə qadınlardı sözün Allahı,
Bəlkə qadınlardı sözün qibləsi.

## *ANAMIN AĞ SAÇLARI*

Elə bil üstündən bircə gün ötüb,
Dünən qara olan saçları ağdı.
Körpələr anamı nənə çağırar,
Nə yaxşı bu evdə ümidlər sağdı.

Yüz ağın içində bir teli qara,
O da hərdən olur gözümə dəymir.
Göz elə öyrənib qara saçlara,
Qocalıb deməyə heç dilim gəlmir!

Sənin alnın kimi bəyazdı, ağdı
Min qürur yaşadır yaşında, Anam!
Demə ki saçlarım ağ qara dönüb
Qar olar uca dağ başında Anam!

## *AĞLAMA, AY ANA...*

Ağlama, ay ana, qurbanın olum.
Göydə mələklər də eşidir səni.
Başını söykəmə soyuq məzara
Onsuz da qəm-qüssə üşüdür səni.

Üzülmə, ay ana, Allaha inan.
Bilirəm ağırdı bir bala dərdi.
Bir də onu bil ki, gəldiyim məkan,
Hamının əbədi gəldiyi yerdi.

Ağlama, ay ana, mən sənə qurban,
Bu yolda can vermək şərəfdir mənə.
"Qoy olsun oğullar vətənə qurban!"
Hələ uşaq ikən deyərdin mənə.

Başını dik saxla, vüqarla dayan,
Şəhidəm, ay ana, vətən daşıyam,
Mən ki, əzəl gündən haqq yolundayam
Yurdumun həqiqi vətəndaşıyam.

## *KİMDİR GÜNAHKAR?*

Heyif o illərə, heyif, min heyif,
Çobanyastığıtək günləri saydıq.
Elə bilirdik ki, qurtaran deyil,
Səkkiz ili belə sayıb qurtardıq.

İndi önümüzdə durur ayrılıq,
Hərə bir tərəfə üz tutub gedər.
Mən sənin ömründə xoş müjdə idim
İndi önümüzü kəsər dərd, kədər...

Sevincim kədərə tən olub indi,
İkisin bir yerdə heç görməmişdim.
Axtarıb həmişə sevinc tapmışdım,
Qəlbimdə kədərlə görüşməmişdim.

İndi həsrətin də bulud kimidi,
Doluya düşmüşük səninlə qoşa.
Hanı hər anımda mənlə birgəydin?!
İndi gəl cavab ver, yağan yağışa!

İndi buz baxışda günəş üşüyür,
Fəsilmi günahkar, gözmü günahkar?!
Bu hissi-duyğunu yazan qələmmi?
Vüsalmı günahkar, sözmü günahkar?!

## *QIZLARIN*

Yazın gəlişilə bəzənər meşə,
Boynunu kədərli bükər bənövşə.
Şehli ləçəklərlə baxsa günəşə,
Yetişər sevilən vaxtı qızların.

Kükrər dağ çayları, axar, gur axar,
Sevən ürəklərdən hərarət çıxar.
Hərə bir gözələ ümidlə baxar
Ümidnən açılar baxtı qızların.

Göz gözdən od alar, ürək alışar,
Dil susar, göz dinər, baxış danışar.
Nə qədər ürəkdə məhəbbət yaşar,
Daim abad olar taxtı qızların.

## *QALANDA ÇİÇƏKLƏ GÜL ARASINDA!*

Qadın bu dünyada zərif gül-çiçək,
Göz-gözlə görüşər, çırpınar ürək.
Qorxuram itirəm ağlımı görcək,
Qalanda çiçəklə gül arasında!

Oxşasa ruhunu tər sünbül-süsən,
Gülər səadətlə - bəxtindən küsən.
Gözəllik önündə nə duman, nə çən,
O, göz qamaşdırır tül arasında!

Ruhuma od salıb bir qaragözlü,
Çıxmaz xatirəmdən o laləüzlü.
Əriyim eşqinə kaş gizli-gizli,
Sirr olum dodaqla dil arasında!

Ürəyim dənizdir, damarlarım çay,
Sevda sellərilə salır hay-haray.
Sevgisiz insanın taleyinə vay,
O, itən ocaqdır kül arasında!

## MƏHƏBBƏT

Qəlbim od tutub yanır,
Bəlkə də heç od deyil.
Kəlmələrə qulaq as
Sözüm istiot deyil.

Hələ qəlbimi duysan
Mənasını anarsan.
Qəlbini məşəl edib
Mənim kimi yanarsan.

İçimdə bəslədiyim
Alov sönər, köz salar.
Köksümə sığmaz ürək,
Məhəbbətdən söz salar.

Anam qədər sevdiyim
Vətən özü məhəbbət.
Laləli, bənövşəli
Çölü, düzü məhəbbət.

Məhəbbət - bu duyğu, hiss
Ruhumda məskən salıb.
Heç kimə deməmişəm
Hələ qəlbimdə qalıb.

## "YOX" DEMƏ

A könlümün sevinci,
Söz demədim ki, inci.
Dedim könlün açılsın,
Yoluna nur saçılsın.

Sən bir bağçanın gülü,
Mən də onun bülbülü.
Uzadım tut əlimi,
Açım sənə qəlbimi.

Həyat məni aparır,
Gəncliyimdən qoparır.
Dur yaxına gəl quzum,
Köksümə sığmır arzum.

Həsrətinlə hər gecə,
Çalıram teli incə.
Mizrab gətir, vur telə,
Qəlbimi gətir dilə.

Onu nizamla, köklə,
Arzundursa, çək zilə.
İstəyirsən düş bəmə,
Amma mənə "YOX" demə.

## VAXTIMIZ AZDIR

Ötsə ömürdən bir il,
Yay, payız, qışdı, yazdı.
Dostlar, gənclik illəri
Kamandı, tardı, sazdı.

Kədərin üstən atlan,
Qatlan qismətə, qatlan.
Gələcəyə qanadlan,
Bu bir arzu-murazdır.

Qəlbimiz çoşqun dəniz,
Olaq mehriban, əziz.
Ömrü xərcləməyək biz,
Çünki vaxtımız azdır.

## QIZ OĞLANDAN İNCİMƏZ

Əgər icazə versən,
Səbəbini sorum mən
Niyə məndən küsmüsən?
Qəlbdə kədər-kin nədir?!
De görüm fikrin nədir?!

Ax uşaqlıq, şən günlər
Qayğısız ötən günlər
Qədrin indi bilinər
Bilməzdim küsmək nədir
O ki, bir əfsanədir.

Günlər tez-tez ötüşər,
Gözlər oğrun görüşər,
Qəlbdə hisslər döyüşər.
Naşılar duya bilməz,
Qız oğlandan inciməz!

## ŞAİRLƏR

Şair sözə əkinçidir,
Əkdiyindən şer bitir.
Ay sözün "ilham pərisi",
Mənə də bir səda gətir.

Bir sözün xətrinə şair,
Torpaq qazar, göyə qalxar.
Səmalarda aya dönər,
Yerə Günəş kimi baxar.

Sözlə qaya çapar şair,
Tökər qələmin gücünü.
Şair sözün yolçusudur,
Sözlə doludur xurcunu.

Dəryadı, dənizdi təbi,
Ləpələnir sakit, coşmur.
Şairlər Allah adamı,
Şairlər yalan danışmır.

Şair sözə bəzək vurar,
Şair sözün nazın çəkər.
Çəkilər öz dünyasına,
Bu dünyadan gözün çəkər.

Söz şairin ruh yeridir,
Söz şairin güman yeri.
Şairin gözü tox olur,
Qələmidir uman yeri.

## YAŞA, AZƏRBAYCANIM!

Günəşin yanan yeri,
İgidlərin qan yeri.
Bu millətin şan yeri,
Yaşa, Azərbaycanım!

Bu məğrur çağın ilə,
Bu dürr torpağın ilə,
Ucal bayrağın ilə,
qoşa, Azərbaycanım!

Tarixində igidlər,
Hərə bir-birindən nər.
Bax, gəlib ər oğlu ər
cuşa, Azərbaycanım!

Bu otuz illik yuxu,
Şükür ki, bitir axı.
Dəyir düşmənin oxu
daşa, Azərbaycanım!

Analar rahat yatır,
Düşmənin dili batır.
Qələbəylə il çatır
başa, Azərbaycanım.
Yaşa Azərbaycanım!